# "İLK POLİQRAFÇI ALİM"

## Sevda Əlibəylinin kitabında naşirin obrazı

### Xalq şairinin sözü

Beləliklə, yeni kitab, yeni düşüncə, yeni müəllif... Bu, on il bundan əvvəlin hekayətidir. İndi Şəddad Cəfərovun 80 yaşı var. Azərbaycanın çox hörmətli bir ziyalısı haqqında danışmağı özünün halal payı bilən Sevda Əlibəylinin «İlk poliqrafçı alim» kitabı işıqlığa çıxır.

Hər hansı bir ədəbi abidə-kitab haqqında danışırıqsa, demək, onun müəllifini də diqqətdən kənarda qoymağa haqqımız yoxdur.

Azərbaycanın mənəvi mühitində naşir obrazının bədii-publisistik ədəbiyyata gətirilməsi, əslində, Ş.Cəfərovun adı ilə bağlıdır. Yəni onun haqqında yazanlar nəşriyyat işinin insan amilindən asılı olan tərəflərini sözə gətirməyə çalışıblar. Və bu müəlliflərdən biri də tanınmış yazıçı-publisist Sevda Əlibəylidir. On il bundan əvvəl S.Əlibəyli Şəddad müəllim haqqında öz kitabını yazmağa başlayanda ədəbi qəhrəmanının haqqında yazılanlar indiki qədər çox deyildi. Nə kəmiyyət baxımından, nə də keyfiyyət baxımından. Doğrudur, bir neçə şeir və poema, eləcə də Ağəddin Mansurzadənin «Atalar üçdən deyib» sənədli povesti ortalıqda var idi. Yazıçı Fatma Həsənqızının «Acılı-şirinli günlər» sənədli romanı da maraqla qarşılanmışdı. Hətta bu əsərin əvvəlki variantı daha əvvəl işıq üzü görmüşdü. Müəllif sonra həmin əsər üzərində işini davam etdirmiş və 2008-ci il sənədli romanın ikinci nəşri yenidən işlənmiş və təkmilləşmiş variantda çap edilmişdir.

Bütün bunlar Ş.Cəfərovun ədəbi obrazının yazı əhlini, qələm əhlini düşündürdüyünü və yazı mühitində demək olar ki, fəal ədəbi obraz kimi gündəmdə olduğunu deməyə əsas verir. Bu qədər yazıların arada olduğu şəraitdə Ş.Cəfərov haqqında daha mükəmməl nəsə demək özü bir problemdir. Yəni istər tədqiqat, istərsə də təxəyyül baxımından obraz qədərincə işlənib. Yeni nəyi demək olar? Düşünmək olar ki, yazıçı-publisist S.Əlibəyli bax bu «nəyi demək olar» sualının cavabını axtarıb və bu cavabı «İlk poliqrafçı alim» sənədli əsərində araya gətirməyə çalışıb.

Əvvəla onu deyim ki, Sevda Bəhram qızı Əlibəyli Lənkəran şəhərində anadan olub, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Ədəbi jurnalistlik fəaliyyətə Lənkəranın «Leninçi» qəzetində başlayıb. Bu gün onu ədəbi-publisistik mühit nəfis şəkildə dərc olunan «Söz» jurnalına görə təqdir edir və yüksək qiymətləndirir. İnsafən, S.Əlibəylinin «Söz»ü ədəbi nəsillərin ayrı-ayrı, fərqli düşüncə sahiblərinin ədəbi dərsliyi olub. O, bu ədəbi dərsliyin araya-ərsəyə gəlməsində Azərbaycan ziyalılarının xidmətini, köməyini həmişə yüksək dəyərləndirib, ayrı-ayrı vaxtlarda «Söz» jurnalı haqqında, «Söz» jurnalının xüsusi buraxılışlarında, «Söz» jurnalı ilə bağlı əlamətdar günlərdə «Söz»ün tərcümeyi-halından danışanda maraqlı faktları yada salır. Dəyərli iş görmüş «Söz»ün yaşarılıq almasında xidmətləri olmuş şəxslərin adını çəkəndə birinci Şəddad müəllimi araya gətirir. Onun «Söz»ün həyata vəsiqəsini yaşarılıq baxımından təsir edən ziyalılardan biri kimi Şəddad müəllimi xarakterizə etməsi heç şübhəsiz, xüsusi təqdirə layiqdir.

Şəddad müəllimin elə böyük işi təkcə öz ixtisas sahəsi, mütəxəssisliyi ilə bağlı deyil, onun humanizmi, təbiətindəki insansevərlik qaynarlığı ayrı-ayrı vaxtlarda çoxlu ədəbi-mənəvi layihələrin reallaşmasında əsas olub. Görünür, S.Əlibəylini mənəvi borc timsalında hansısa hisslər səfərbər edib. O, Ş.Cəfərovun 70 illik yubileyi ərəfəsində «İlk poliqrafçı alim» kitabını elə bu səfərbərlik duyğularının təsiri altında yaza bilib, araya-ərsəyə gətirib. Nə üçün yaza bilib, deyirik, nə üçün araya-ərsəyə gətirə bilib deyirik?




Bütün suallara cavabların ifrat dəqiqliyindən söhbət gedə bilməz. Eləcə də Ş.Cəfərovla bağlı S.Əlibəylinin gördüyü işlərin mahiyyəti də çoxcavablı ola bilər. Amma bir əsas cavabı düşünürəm ki, mütləq qeyd etməliyik: O, bir müəllif olaraq daha orijinal bir yol seçir. Yəni Ş.Cəfərovun tarixi taleyində bir sinema olaraq görünən insanların yazdıqlarını, düşündüklərini, xatirələrini, duyğulanmalarını bir araya gətirməyə çalışıb. Bu aralıq mühit insanın öz müasirləri tərəfindən dəyər alması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Söz yox, biz müəllif haqqında müəllifin ədəbi obrazı görünən və görünməyən tərəflərdən göstərmək imkanları haqqında danışmalı oluruqsa, onda kitabın quruluşu, kitabın əhatə etdiyi mövzular haqqında oxuculara mümkün qədər əhatəli məlumat verməyə də borcluyuq.

Azərbaycanın «İlk poliqrafçı alim»i kitabını məzmun baxımından insan təbiətinin müxtəlif tərəflərdən xarakterizəsi, müxtəlif rənglərlə ifadəsi kimi də qəbul etmək olar. Bəli, Azərbaycan mənəvi mühitinin dəyərli simalarının söz rəngləri ilə işlənmiş bir portretdən söhbət gedir.

Əvvəla, əsərin orijinal quruluşu - bir oçerk S.Əlibəylinin özünün, qalan yazılar Azərbaycan ziyalılarının xatirə-təəssürat qeydləri və obrazın poeziyada ifadəsi... bu, əgər belə demək mümkünsə, kitabın quruluşudur. Və elə bu quruluş bizə imkan verir ki, portretin müxtəlif tərəflərdən kimlərin rənglədiyini də görə bilək. Çoxlu insanlar, ziyalılar, alimlər, dövlət xadimləri, söz-sənət adamları Ş.Cəfərov haqqında fikir yürütməyə çalışır, münasibət bildirmək istəyirlər. Sanki S.Əlibəyli özü belə bir mühiti yaradır, sərbəst bir mikrofon qoyur və meydan açıq elan olunur; hər kəs öz sözünü deyə bilər.

S.Əlibəylinin «İlk poliqrafçı alim» kitabına Azərbaycanın azadlıq idealları uğrunda mübarizəsinə şəksiz böyük xidmətləri olmuş Azadlıq hərəkatının liderlərindən biri Sabir Rüstəmxanlının «Ön söz» yazması təsadüfi ziyalılıq borcu sayıla bilməz. Çünki S.Rustəmxanlının mətbuat mühitimizdə öndə olduğu zamanlarda Ş.Cəfərov mətbuatın aparıcı siması idi: naşir kimi, təşkilatçı kimi, poliqrafçı kimi... və bunu da demək yerinə düşər ki, Ş.Cəfərovu Azadlıq hərəkatının başladığı dövrdə Azərbaycana elə meydan dalğası qaytarmışdı. Axı o, uzun müddət idi ki, Ulyanovsk şəhərində böyük nəşriyyatın direktoru idi.

Bütün bunların hamısını mənəvi mühitimizin 80-90-cı illəri əhatə edən dövründə öndə olan ziyalımız S.Rüstəmxanlı yaxşı bilirdi. Və S.Əlibəylinin kitabına «Ön söz» yazmağı bu baxımdan təbii qəbul olunmalıdır. O, yazısının başlanğıcındaca ən səmimi duyğularla əsas obrazın mənəvi mühitinə nüfuz etməyə çalışır: «İnsana başucalığı, üz ağlığı gətirən, ailəsində və cəmiyyətdə hörmət qazandıran cəhətlərdən biri öz sənətinin ustası olmasıdır. Poliqrafiya elminin ilk qaranquşu saydığımız Ş.Cəfərov nəinki sənətinin ustası, həm də görkəmli alimidir». Görkəmli şair və mətbuat xadimi S.Rüstəmxanlı təsadüfi demir ki, o, öz sənətinin ustasıdır. Çünki uzun illər ədəbiyyat xadimi olaraq Ş.Cəfərovla təmasda olub. Onunla ünsiyyət bağalayıb, sözə, ədəbiyyata münasibətini müşahidə edib və nəhayət, onun Azərbaycanda nadir bir sima olaraq poliqrafiyada görkəmli alim olduğunu da görüb və gördüyündən də onu qiymətləndirməyə, əməli fəaliyyətinə dəyər verməyə çalışıb: «Ömrümün 40 ili poliqrafçıların, naşirlərin, mətbəə işçilərinin, jurnalistlərin arasında keçib. Bu mühitdə bir-birindən maraqlı çox adamlarla tanış olmuşam. Kitab anbarlarında çalışanlardan tutmuş, nəşriyyat direktoruna qədər ürəyimdə hər kəsin öz yeri, xatirəsi var». Necə də aydın ifadə olunan düşüncələrdir. Özünün poliqrafçıların, naşirlərin, mətbəə işçilərinin, jurnalistlərin arasındakı yerini burada yada salması təsadüfi deyil. Axı Ş.Cəfərov məhz bu mühitdə görünür. Və S.Rüstəmxanlı kimi bir simanın onu vaxtında, məqamında görməsi elə bu səbəbdən də yeri və vaxtı, məqamı gələndə dəyərləndirmək istəməsi, xüsusilə təqdirəlayiqdir. Şübhəsiz, S.Rüstəmxanlı ilə Ş.Cəfərovun görüşləri çox olub. Bu və ya digər dərəcədə qarşılıqlı münasibətlər, ədəbi-mənəvi əlaqələr, yazıçı-naşir münasibətləri... bütün bunlar onların birbiri tanımasına təbii şərait yaradıb. Elə bu səbəbdən də S.Rüstəmxanlının, yəni görkəmli ədəbiyyat, mətbuat xadiminin, Milli Azadlıq hərəkatı liderlərindən birinin və nəhayət, Azərbaycan xalqının mənəvi mühitinin zənginləşməsində əvəzsiz xidmətləri olan sənətkarın, xalq şairinin söz deməsi nə qədər təbiidirsə, bir o qədər də qürurvericidir. Çünki S.Rüstəmxanlı tanıdığı adam haqqında danışır. S.Əlibəylinin kitabının ədəbi qəhrəmanını yaxşı tanıdığı üçün də ürəklə danışır, sevgi ilə danışır: «Şəddad Cəfərovun ədəbi mühitdə, qələm sahibləri və ziyalılar arasında nüfuzu böyükdür. Onun haqqında çox yazıblar, yenə də yazacaqlar. Ömrü boyu minlərlə kitabın nəşrinə imza atmış, bütün həyatını kitaba həsr etmiş, poliqrafiyaya yeni-yeni töhfələr bəxş etmiş bir şəxsin özü haqqında kitab yazılması əslində savab işdir. Gözəl bir kitabı əlinə götürən hər hansı şəxs həm kitabın yazarına, həm də qəhrəmanına həsədlə baxır, arzulayır ki, kaş belə bir kitab mənim haqqımda olaydı. Bu mənada mənim köhnə dostum Şəddad haqqında da yazılan kitaba təbii baxır, onun halal haqqı sayıram. Bu kitabı Azərbaycanda gözəl qələm sahibi kimi tanınan Sevda Əlibəylinin yazmasını alqışlayıram. Yazılarına həm mətbuat səhifələrindən bələdəm, həm də yaradıcılıq tərcümeyi-halının parlaq səhifəsi sayılan "Söz" jurnalından. "Söz" bizim Cənub bölgəsindən pərvazlanan, bədii dəyərlərinə görə heç bir mətbu orqandan geri qalmayan bir dərgidir. Onun coğrafiyası bütün Azərbaycanı əhatə etsə də, əsasən Cənubda yaşayıb-yaradan istedadların bədii tribunasıdır. Ədəbi prosesləri işıqlandırmaqda jurnalın müstəsna rolu var». Bu bir qədər də geniş mətndə hər şey var. Əhatəli, dərin və səmimi yanaşma var. Biz S.Rüstəmxanlının sözlərində kölgə görmürük, açıq-aydın işıq görürük.

Yazıçı-publisist S.Əlibəyli Ş.Cəfərov haqqında yazdığı kitaba Gertsenin sözlərini epiqraf gətirir: «Kitab nəsildən-nəslə ötürülən əmanətdir». Və elə bu sözlərin arxasınca ehtiyac duyur ki, Şəddad müəllimin özünün də bir düşüncəsini müdriklik mahiyyətində ifadə olunan aforistik qeydini epiqrafda ikinci eləsin: «İşin hazırına gələn adam yaxşı rəhbər ola bilməz. Gərək fəhləlikdən başlayasan». Bu sözlər həm Gertsenin məşhur kəlamı, həm də Ş.Cəfərovun düşüncə qənaəti bu kitabın əsas motivi haqqında oxucuda bəri başdan təsəvvür yaradır. Oxucu başa düşür ki, bu kitabda dəyərli bir mənəviyyat salnaməsi öz əksini tapacaq. Və bu kitabı vərəqləməklə özü də yaşamaq düsturunu, xüsusilə, halal yaşamaq düsturunu əxz edə biləcək.

S.Əlibəyli bu kitabı on il bundan əvvəl nəşr etdirib. Çox güman ki, yazmağa başladığı vaxt daha əvvəlki tarixlərə getmiş olar. Hər halda aradan ötən mərhələ ədəbi obrazın həyatının davamı kimi də öyrənilməyə layiqdir. Çünki bu müddət Ş.Cəfərov üçün durğun, kölgəli bir dövr olmayıb. On il ərzində Ş.Cəfərov Azərbaycan mənəvi mühitinin çox qabarıq bir obrazı kimi xarakterizə olunub.

S.Əlibəylinin publisistik düşüncələrinin Ş.Cəfərov obrazına yönəlməsi də təsadüfi deyil. O, istər "Söz" jurnalının nəşri ilə bağlı qayğılarında Ş.Cəfərovun iştirak etməsini, istərsə də S.Rüstəmxanlı timsalli ziyalıların Şəddad müəllimə münasibəti baxımından gördüklərini düşüncəsindən asanlıqla ötürə bilməzdi. O, yaxşı görürdü ki, ona işgüzarlığı, qayğıkeşliyi ilə doğma olan Ş.Cəfərovu insanlar - Azərbaycanın tanınmış ziyalıları necə sevir, necə böyük hörmət və ehtiram göstərirlər. Demək, S.Əlibəyli də bir publisist-yazıçı olaraq görkəmli Azərbaycan ziyalısına özünün hörmət və ehtiramını səmimi sözü ilə ifadə etməli idi.

İllər ötdükcə görkəmli naşirin tərcümeyi-halında dəyişikliklər baş verir. Karvanın qəmli, kədərli vadilərdən keçməyi də var. Və demək, ruh gətirən, onun təbiətini qanadlandıran məqamlar da var.

*06.02.2020*